


Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Sevinc Nuruqızı
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev



Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.



Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.

Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88

Tel: (+99412) 5970879, Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat nömrəsi: № 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**twitter.com**/childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan


# GÖY QURŞAĞI


UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 2 (71) - 2020




# QARABAĞ AZƏRBAYCANDIR!






Könlümün sevgili, məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.

Saxlaram gözlərim üstə onu mən,
Ölərəm, əldən əgər getsə vətən.

Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.

Vətən - əcdadımızın mədfənidir,
Vətən - övladımızın məskənidir.

Vətənin sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

Abbas Səhhət



Şəhla Qəmbərova
Əməkdar mədəniyyət işçisi

Vətən... deyilişi şirin olduğu kimi, məzmunu, qayəsi də yüksək və hikmətlidir!

Vətən! Bu sözün özü insanlarda dərin və əziz hisslər oyadır. Vətən, sadəcə müəyyən sərhədləri olan məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır.

Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu vətənin çiçəkənməsinə istiqamətləndirən ən güclü mənəvi-əxlaqi hissdir. Bu hissi uşaqlıq illərindən aşılamaq biz böyüklərin başlıca vəzifəsidir.

Vətəni sevmək, onu qorumaq üçün hər an tədbirli olmaq və lazım olduğunda canını vermək müqəddəs vəzifədir.

Vətənpərvərlik ən ülvi hissdir. Bu gözəl və nəcib əxlaqi keyfiyyəti gələcəyin qurucuları olan uşaqlara aşılamaq və təbliğ etmək hamı kimi biz kitabxanaçıların da borcudur.

Zəngin tarixi keçmişimizdən tutmuş bugünki tariximizə qədər gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Biz şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, Polad Həşimov və bir çox sərkərdələrimizin şəxsi nümünəsi bizə düşünməyə əsas verir ki, Azərbaycan xalqı qəhrəman xalqdır.

Vətən naminə yaşamaq, xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmağa lüzum yoxdur. Fəhlə də, həkim də, müəllim də, alim də, Vətən üçün yaşaya, öz əməli ilə vətəninin şöhrətini artıra bilər.

Vətən təkcə ata-babalarımızdan bizə əmanət qalan torpaq, yurd-yuva deyil. Vətən biz, hamımızıq.

Biz hamımız Vətənimizə cavabdehik!








# Zəfər sənindir, Azərbaycan əsgəri!



Пишет вам ученица 7"д" класса школы №212 из города Баку. Зачем пишу? вы спросите меня. Я хочу чтобы вы знали, что мы гордимся вашим героизмом и отвагой совершаемой вами, каждый день, каждый час, и каждую минуту, находясь лицом к лицу с подлым врагом на поле боя. Каждая новость о победе, преимущество достигнутые доблестной Азербайджанской армией бесконечно радуют азербайджанцев. Я уверена что Азербайджанская армия одержит достойную победу над армянскими оккупантами. Эта победа войдёт в историю азербайджанского народа и всего мира. Да поможет вам Аллах в этом священном деле.

Я признательна вам и нашему господину президенту за чувство гордости, которое вы подарили азербайджанскому народу. Не одному врагу не устоять перед единством азербайджанского народа и мощью нашей армии. Все мы с нетерпением ждём момента, когда наша доблестная армия, освободит наши оккупированные земли от армянских захватчиков. И в скором времени все наши переселенцы вернутся в родное

Победа за нами. Карабах – это Азербайджан!

Qarabağ Azərbaycandır!

## Əsgər məktubu

Əsgər məktubları alıram hərdən,
Məhəbbət, cəsarət, dəyanət dolu.
Neçə tərifçinin təriflərindən,
Bir əsgər məktubu gərəkli olur.

Əsgər nə istəyir? –
Bir təzə nəğmə.
Nəğməsiz darıxır əsgər tüfəngi.
Bir əsgər qəlbində qopan zümzümə,
Bir Vətən daşını isidəcəkdir.

Bir əsgər yazır ki, "sərhədçiyəm mən,
Əlimdə tüfəngdir, dilimdə şeir.
İnamla, qeyrətlə qorunur Vətən,
Bunlarsız silahlar lal-kardır", – deyir.

Bir nəğmə əsgərin dodaqlarında,
Sərhəd küləyinə həmsöhbət olar.
Bir nəğmə əsgərin barmaqlarında,
Tətiyə söykənən cəsarət olar.

Əsgər məktubunda torpaq göyərir,
Meşələr uzanır ufüqlərəcən.
Əsgər məktubunda bir dağ göyərir –
Ətək də Vətəndir, zirvə də Vətən.

Əsgər məktubunda quş səksəkəsi,
Əsgər məktubunda qaya təmkini.
Bir nişan həsrəti,
Bir toy həvəsi,
Hər sətri keşikçi nidası kimi...

Əsgər məktubunun cavabı çətin,
Əsgər məktubunun cavabı asan.
Yetişməz əsgərə söz məhəbbəti,
Yetişməz, sözlərin əsgər olmasa.

***Məmməd Araz***





# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Azərbaycan Ordusu günü-gündən daha da möhkəmlənir, qüdrətlənir. Əsgərlərimizin böyük rəşadət və xalqımızın vətənpərvərlik hissi ilə qəhrəmanlıq tarixini yazdığı bu günlərdə Respublika Uşaq Kitabxanası "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" adlı vətənpərvərlik mövzusunda videoçarx təqdim etdi.

Əsas məqsəd, ordumuza mənəvi dəstək olmaqla, vətənpərvərlik hisslərini uşaq və yeniyetmələr arasında gücləndirmək, kitabxananın fondunda olan, hərb və vətənpərvərlik mövzusunda resurslarla virtual oxucuları tanış etməkdir.

Mövzu çərçivəsində, kitabxananın əməkdaşları haqq yolunda inamla irəliləyən Ali Baş Komandan Cənab İlham Əliyevin güclü siyasətindən, Cənubi Qafqazın ən güclü ordusu hesab edilən şanlı Azərbaycan ordusundan və ümumilikdə Azərbaycan xalqının vətənpərvərliyindən ətrafli məlumat verdilər. Videoçarxda virtual oxucular üçün kitabxananın fondunda olan vətənpərvərlik mövzusunda yazılmış kitablar da təqdim edildi.






# Жестокая, ненавистная Война!

Я лично не знакома с тобой, но мне достаточно того, что я знаю о тебе из рассказов моей бабушки, из прочитанных книг и художественных фильмов.

Я не желаю встречи с тобой, Война, потому что после тебя остаются только слезы и горе, боль и разочарование.

Я ненавижу тебя, Война! Мне противны все люди, которые разжигают великий Огонь Войны. А ведь именно в этом Огне сгорают наши мечты!

Ну, а больше всего мне противны люди, которые фанатично следуют за тобой, которые обожествляют тебя, Война! Ведь эти люди не живут в нашем мире, они живут в мире, где главными ценностями являются не героизм и патриотизм, а в мире, где ценятся злость, ненависть, жестокость и коварство.

Разве не доказала тебе Карабахская Война, что ты слаба и ничтожна? Разве не убедил тебя героизм наших солдат, поддержка всех азербайджанцев в том, что ты никогда не сможешь одолеть нас и спокойствие на нашей земле?

А сколько горя ты принесла всем нам! Не ты ли сиротила детей, лишала пап и мам, разлучала родных, лишала любящих матерей их детей? Но самое обидное то, что ты совсем не думала о последствиях!

Как бы не старалась ты разжечь свой Огонь в Агдаме,Шуше, Джебраиле, Физули,тебе никогда не удастся сделать этого, никогда не удастся разлить мрак по всей нашей земле, у тебя никогда не получится полностью заполнить сердца людей жестокостью и коварством.

**НИКОГДА!** И я, и мои друзья, одноклассники заявляем тебе:

«Нет места на Земле такому коварному и злобному существу – Войне!»

Обращаемся к тебе, Война, не с уважением, а с презрением. За то, что ты бесцеремонно вторглась в наши дома, неся разрушение. Все те страдания, которые ты причинила, мы никогда не забудем. Вспоминая эти события, мы будем проклинать тот день, тот год и тот час, когда ты пришла в наши города. Не забудем тех людей, солдат, чьи жизни ты унесла, не забудем тех героев, которые шли против той вражеской силы, которой ты руководила своей железной рукой.

Ты виновна в смерти тысяч человек, ты и никто другой.

Ты убивала детей и стариков, ты не щадила никого, так почему мы должны тебя уважать? Помнишь ли, когда они погибали? Знаешь ли ты, кто они, кем они были? Это простые люди, которых ты вынудила сражаться, мирную жизнь они променяли на жизнь в окопах и землянках. Все те, кого ты убила ни в чем не виноваты. Они не хотели того горя и ужаса, который ты принесла. Те дети, которые остались без родителей, те родители, которые остались без детей, все винят в смертях своих близких только тебя, Война.

И в эти дни мы говорим тебе нет, Война!

**Кулиева Физура,**
**ученица 9 класса, средняя школа №258**



# Здравствуй, Война!

Пишет тебе ученик девятого класса Азим. Я давно хотел написать тебе, рассказать о том, как мы – дети, относимся к тебе. Начну с того, что расскажу свое личное отношение. Я никогда не видел тебя, и считаю, что это к лучшему. Тебя часто показывают по телевизору, рассказывают о тебе. Вообще, вся твоя биография довольно интересна, ты очень умело меняешь обличья, но суть остается одна. Ты несешь смерть и разрушения. Неудивительно, что большинство детей боится тебя. В головах детей ты всегда ассоциируешься с тьмой, с черным дымом, смертью, руинами, горем, разрушающим огнем. Террористы – твои дети, они продолжают твое ужасное дело.

Ради чего ты приходишь вновь и вновь, унося жизни ни в чем не повинных людей? Неужели нельзя обойтись без жертв? Нет, ты не такая, ты хочешь как можно больше крови и смертей, взрывов, выстрелов. Кстати, давно хотел спросить: у тебя нет сестры по имени Смерть? Нет? Странно, я думал, вы – сестры.

Война, ты страшна еще тем, что встретив тебя однажды, о тебе нельзя забыть. Мои дедушка с бабушкой до сих пор помнят тебя, несмотря на то, что время, прошедшее с момента вашей встречи, довольно велико.

Я считаю, что единственный враг, с которым необходимо воевать – это ты, Война!

Уходи, Война! Уходи!

**НАМ НУЖЕН МИР!**

**Кязимов Азим,**
**Бакинский Европейский Лицей, ученик 8 класса**



Sevinc Nuruqızı

# Günəş, buludlar və Ağca



O, bəmbəyaz idi... Günəşə doğru uçanda göy üzündə bir topa ağ buluda bənzəyirdi. Dostu ona Ağca deyirdi. O da dostunun dilindən adını eşidən kimi uçub gəlir, ağ lələkli çəhrayı ayaqlarını götürüb qoya-qoya onun ovcunda dənlənirdi...

Günlərin bir günü eşitdiyi sözlərdən həyəcanlandı:

- Ağca, mən gedirəm...

Boynunun tərpənişi ilə astaca soruşdu: "Hara?".

- Cəbhəyə, Ağca. Vətəni qorumağa... Hər kəsin bir Vətən adlı sevimlisi var. Hər kəs də ona olan borcunu verməlidir...

Ağca yaxşı anlayırdı Vətən nə deməkdir. Hər dəfə yovşanlı çöllərinin ətrini sinəsinə çəkəndə sevinirdi. Hər dəfə yağışında yuyunub, Günəşində lələklərini qurudanda Vətən hərarətini duyurdu...

Ağca dimdiyini dostunun sevimli üzündə gəzdirdi. Onunla fəxr etdi, qürur duydu. Göyərçinlərin ağlaması bilinməz ki... Amma Ağca kövrəldi. Sonra ayrıldılar. Ağca əsgər paltarı geyinmiş dostunun ardınca bir xeyli uçdu. Yorulanadək... Sonra uca bir ağaca qonub o, gözdən itənədək baxdı... Onun əvəzinə sevindi...

Ağca cəmi bir neçə gün dözə bildi. Sonra qanadlandı. Ağ buludların arası ilə üzü Günəşə uçdu, uçdu... Nəhayət, bir hasarın üstünə qondu. Diqqətlə baxdı... Yanılmamışdı. Dostu xidmət etdiyi ordu hissəsini tapa bilmişdi...

- Ağca... Gəldin?!

- Gəldim, dostum, gəldim...

- Burada sənin üçün çox çətin olacaq... Dözə biləcəksənmi?!

"Dözəcəyəm", - dedi Ağca... Uçub dostunun başı üzərində dövrə vurdu. Elə alçaqdan uçdu ki, lələkləri onun üzünə, boyun-boğazına toxundu...

***

Və o gündən cəbhə göyərçini oldu... Bəmbəyaz lələklərini səngərlərdən qalxan toz bozartdı, çəmçəhrayı ayaqları Vətən çöllərinin torpağına bulaşdı... Amma dözdü. Əsgər qazançalarından yedi... Əsgər çiyinlərinə qondu... Əsgər nəğmələri oxudu:

Vətən, səndən uca nə var,
Yer üzündə, Göy üzündə...
Vətən, sənsiz dar olar, dar
Yer üzü də, Göy üzü də...

Ağca böyük bir alayın sevimlisi oldu... O, indi hər bir əsgərin dərd ortağı idi... Onunla pıçıldaşırdılar. Əsgərlərə elə gəlirdi ki, Ağca onların nə dediyini çox gözəl başa düşür. Kobud əsgər əlləri onun yupyumşaq başına sığal çəkəndə Ağca dünyanın ən xoşbəxt göyərçini olurdu...

Və günlərin bir günü... Göy üzünü qapqara buludlar aldı. Günəş buludların arasında itdi. Qəfildən düşmən zirehli tanklar və böyük canlı qüvvə ilə hücuma keçdi. Əsgərlər səngərlərdə qəhrəmanlıq göstərirdilər. Amma qüvvələr qeyri-bərabər idi. Tanklar səngərlərin üstündən keçir, ətraf od tutub yanırdı. Düşmən gülləni dolu kimi yağdırırdı. Onlar mühasirəyə düşmüşdülər. Ön xətt ilə əlaqə tamam kəsilmişdi. Silah-sursat və ərzaq ehtiyatı tükənmişdi. Ağca qanadlarını çırpa-çırpa yaralıların arasında gəzişir, dimdiyinə aldığı bir damcı suyu onların yanan dodaqlarına çiləyir... Və yenidən su dalınca gedirdi... Başqa nə edə bilərdi ki?!

Sonra tüfəngin qundağına söykənmiş dostuna yaxınlaşdı. Ağca gözlərinə inanmadı. Üstünə qan sıçramış lələklərini həyəcanla çırpdı. Muncuq gözləri bərəldi. Dostu yaralanmışdı... Dimdiyini onun barıt ətri verən yanağına sürtdü. Sonra qayıdıb tüfəngin lüləsinə qondu. Dostu ona baxdı. Qolundan axan qan barmaqları aşağı süzülürdü... Ağır nəfəs alırdı... Qəfildən gözləri işıqla doldu. Gülümsündü. Ağarmış dodaqlarını güclə tərpədib dedi:

Ağca, diqqətlə dinlə məni... Bizə kömək etməlisən... Arxa cəbhə ilə əlaqə yaratmalısan.

Ağca sevindi... Necə sevindisə, tüfəngin lüləsi işıqlandı... Başını tərpətdi. Deməli, o, kömək edə bilər... Vətənin çətin anında Ağca lazım oldu. Deməli, Ağca da Vətənə xidmət edə bilər. Vətənə və əsgər dostlarına... Poçt göyərçini olmuş əcdadlarından qalan bütün məharətini cəmlədi. Günəşlə istiqaməti müəyyənləşdirmək bacarığını beynində bir daha təkrarladı. Əsgərlərin gözündə ümid qığılcımları parladı:

Ağca, sən bacaracaqsan.

Mütləq. Son ümidimiz sənsən, Ağca...

Dostu onun gözlərinin içinə baxdı:

Ağca, əzizim. Əsas bizim xilasımız deyil... Vətənin xilasıdır. Dostum! Vətən naminə...

Ağca ayağını qoyduğu torpaqdan güc aldı. Üzünü əsən küləyə tutub yalvardı: "Məni darda qoyma, dedi. Mən uçan istiqamətdə əs, küləyim!".

Və çəhrayı ayağına bağlanmış məktubla havaya qalxdı.

Ardınca əsgər əlləri yelləndi, əsgər baxışları dikildi... Uçuş istiqamətində ılıq Vətən küləyi əsdi...

Ağca qara buludların arasında getdikcə kiçilən ağ nöqtə kimi uzaqlaşdı. Buludlar aralandı. Günəş gülümsədi...

Ağca uçdu, uçdu, uçdu... Yoruldu, amma dincəlmək üçün enmədi. Buludların arası ilə elə sürətlə uçurdu ki... Qəfil göy üzü qapqara oldu... Buludlar su ilə doldu, ağırlaşdı. Sonra şimşək çaxdı. Səma parça-parça oldu. Ağca müvazinətini itirdi. Bir anlığa səmti azdırdı. Havada çapaladı, sürətlə aşağı enməyə başladı. Ona elə gəldi ki, bu saat daş kimi torpağa çırpılacaq. Pıçıldadı: "Vətən, bağışla!". Amma qəfil buludlar dağıldı. Günəş... Günəş necə parıltı ilə qaranlıqlara işıq səpdisə. Ağca endiyi sürətlə qalxdı. Bir günəş şüasını tutub, onun işığı ilə yoluna davam etdi. Susadı... Buludlarla yatırtdı susuzluğunu. Yoruldu... Qanadlarına Vətənə olan sevgisi və dosta sədaqəti güc verdi...

Günəşin son şüaları göy üzündən çəkiləndə Ağca müqəddəs bildiyi borcu artıq yerinə yetirmişdi...



*Солмаз Аманова*

# Харыбюльбюль

— Отец, я не могу выйти за него замуж.

— Это укрепит наши границы. После смерти Ага Мухаммеда Баба-хан станет шахом Ирана. На Новруз будет его коронация. Готовься к отъезду. Я дал свое согласие на вашу свадьбу и решение свое менять не буду.

Агабегим долго плакала. Матъ не могла ее утешить. Незаметно ото всех она вытирала слезы, собирая дочь в дорогу. Мать — Хуршид Бегим Каджар перечитъ Ибрагим хану не могла, да к тому же Баба хан прислал сватов. В марте 1798 года Агабегим в сопровождении двухсот всадников и многочисленной прислуги была отправлена в Тегеран по случаю коронации Баба хана. Всю дорогу она плакала. Ей было больно расставаться с Родиной, любящей матерью, любимым. Зеленые луга на склоне горы, где она с подругами собирала цветы, журчание ручейка, шум водопада, трели соловьев, жужжание пчел, все ее детство вставало у нее перед глазами.

– О Аллах! Помоги мне, — только и твердила шепотом Агабегим. Во дворце шаха ее встретили с большой любовью и почтением, ведь в ее жилах текла кровь Каджаров. Агабегим предоставили отдельную комнату, в которой на подносах лежали золотые украшения и богатая свадебная одежда. Но безутешно было ее горе.

– Принесите мне старое платье матери Баба-хана, — попросила она служанок.

– Зачем вам платье матери, когда здесь столько красивой одежды, украшенной драгоценностями?

– Я хочу надеть платье, к которому привык Баба-хан, — убедила она прислугу. Они, поверив, что это может понравиться шаху, принесли ей старое домашнее платье матери шаха. Когда Фатали шах, назвавший себя так после коронации, пришел навестить свою невесту, он был поражен, увидев Агабегим в платье своей матери. Родной запах, исходивший от платья матери в полутемной комнате, остановил его. Ему почудилась матъ.

«Что это?» — подумал шах.

– Тебе не понравились мои подарки? — спросил шах у Агабегим.

– Нет, шах, они превосходны, но это платье Вам дорого.

– Оно мне дорого, это правда, но откуда ты можешь это знать, ведь ты еще так молода? Недаром тебя прозвали Агабегим, ты умна и достойна своего имени и рода. С этого дня ты будешь моим советником и старшей женой гарема, – сказав это, Фатали шах покинул покои Агабегим.

Прошли дни и Агабегим в тоске по Родине написала стихи. Жены Фатали шаха тут же доложили ему об этом. Он вызвал ее к себе:

– Ты не можешь забыть Карабах?

Влюблена я в Карабах,
Шеки,Ширван,Карабах.
Если даже Техран рай,
Не забыть Шушу мне, знай!

– Что за стихи ты написала?

– Шах, я написала стихи, но они не только о Карабахе.

– Прочти, — промолвил шах.

Влюблена я в Карабах,
Шеки,Ширван,Карабах.
Для меня Техран стал рай,
Карабах забыт, ты знай!

- Да, как всегда, ты права. Что ты хочешь за эти прекрасные стихи?

— Разбей в Тегеране сад, в котором бы росли все растения Карабаха.

Фатали шах так и поступил. Прошло время. В саду расцвели деревья, прекрасные диковинные цветы своим ароматом разбудили пчел, пение сольвьев взбудоражило душу, дуновение теплого ветерка напомнило Агабегим о родном городе Шуше. Но войдя в сад с Фатали шахом, который с гордостью стал восхвалятъ работу садовников, Агабегим забеспокоилась.

Ее глаза не видели всех этих чарующих шаха диковинных цветов, она искала то, что не могло вырасти на чужбине. Всё же она надеялась, что садовники шаха сумеют выраститъ этот цветок. И вдруг, подобно журчанию ручья, соловьиной трели, дуновению свежего ветерка, из её уст вырвались наружу печальные стихи.

Соловей, ты что не рад?
Посмотри, как цветёт сад!
Ты по Родине грустишь,
Не поёшь и всё молчишь!

Соловей, где твой цветок?
Не прижился здесь росток!
Много обещал мне шах,
А мне снится Гарабах.

Хоть прекрасен шаха сад,
Соловей мой всё не рад.
Не признал цветок сад шаха,
Мне не жить без Гарабаха!
Стихи Агабеим Ага (перевод с аз языка)

Агабегим не смогла сдержатъ слёз, которые покатились по её нежному лицу.

— Что с тобой, почему ты плачешь, это же твой сад и растения твоей Родины.

— Шах, на этой земле не расцвел мой любимый цветок — хары бюльбюль.

— Это только один цветок, посмотри вокруг, как расцвели все другие цветы твоей Родины, — сказал шах.

— А ведь я надеялась, что он здесь зацветет. Да, шах, это цветок, а я человек, и поэтому я плачу, что не могу забыть свою Родину — Шушу и цветок харыбюльбюль.



Gülzar İbrahimova

# Evin kişisi

Hər tərəf ağappaq qar idi. Qar yağır, hey yağırdı. Nağıllardakı kimi. Yalın ayaqla qarın üstündə yeriyirdik. Yox, bu yuxu deyildi. Biz doğrudan da qarın üstə ayaqyalın gedirdik. Bəzən isə yüyüyürdük. Anamla mən. Körpə bacım da anamın qucağındaydı. Şaxta onun yanaqlarını qızartmış, o lap gözəlləşmişdi. Amma elə ürəkdən ağlayırdı ki, onu heç vaxt belə ağlayan görməmişdim. Anam isə elə hey, - can - deyirdi, gah bacıma, gah da mənə.

Qar yalın ayağımın altında xırçıldadıqca ayaqlarımın altını yandırırdı. Heç qar da adamı yandırar? Amma mənim ayağımı yandırırdı.

Mən lap balaca olanda qarda oynayanda əllərim donardı. Tez qaçıb əllərimi sobada qızdırardım. Ya da anam onları nəfəsilə qızdırardı. Amma indi yandırırdı ayaqlarımı qar. Bir də baxdım ki, ayaqlarımın altından qan gəlir, qorxdum. Anama dedim. Anam başındakı yaylığını götürüb iki yerə böldü. Yaylığın hər parçasını bir ayağıma bağladı. Qan dayanmırdı. Anam da ayaqyalındı. Amma onun ayaqlarından qan gəlmirdi. O mənə dedi:

- Bax, heç mənim ayaqlarımdan qan gəlmir.

- O, ayağını qaldırıb mənə göstərəndə gördük ki, onun da ayaqlarının altı qanayır. Dedi:

- Mənim ayağım ağrımır. Az qalıb, bir az da getsək, çatacağıq.

Mən dözürdüm. Atam ermənilərlə döyüşdə qəhrəman kimi öləndən sonra anam həmişə deyirdi ki, mən evin kişisiyəm. Mən doğrudan da böyümüşdüm. Altı yaşım tamam olmuşdu. Bir az da böyüsəm, məktəbə gedəcəyəm, bir az da böyüsəm anam qoymasa da gizlincə gedəcəyəm atamın əsgər dostlarının yanına. Mənə də avtomat verəcəklər, erməniləri qıracağam, - gedə-gedə fikirləşirdim.

Bunları yadıma salıb dözürdüm. Amma ayqlarım elə yanırdı. Bacım anamın qucağında olmasaydı, mən anamın qucağında gedərdim, ayaqlarımın bir az ağrısı azalardı.

Bir azdan bacımın səsi kəsildi. Anam ağlaya-ağlaya qarı qazıb onu qarın altına basdırdı. Mən soruşanda ağlaya-ağlaya dedi:

- Bacını burda gizlədək ki, ermənilər onu görməsin. Bir də Xocalıya qayıdanda götürərik.

- Düz deyirsən, ana, möhkəm gizlət, qoy ermənilər onu tapmasınlar, -dedim.

Sonralar, lap sonralar başa düşdüm ki, bacım ölmüşdü. Anam belə deyirdi ki, mən ağlamayım. Çünki bacımı çox istəyirdim.

Bacımı gizlədəndən sonra anam məni qucağına aldı.Sonra ayaqlarım daha heç vaxt ağrımadı. Bakıda, xəstəxanada ayaqlarımı dizə qədər kəsəndə də, sonralar da ağlamadım. Çünki mən evin kişisiydim.

# Şuşa

*Səməd Vurğun*

Naləli bir fəryad qalxdı göylərə,
Bu Bülbül səsiydi, Cabbar səsiydi.
Bağrı qan olmuşdu Şuşanın bu gün,
Bu səs anaların ah-naləsiydi.

Gözündən qan yaşlar tökdü torpağım,
Köksünə dəymişdi düşmən ayağı.
Natəvan dözmürdü daşların altda,
Dünyaya düşmüşdü onun harayı.

Xan baba, Seyid də nalə çəkirdi,
Güllələr torpağı dəlib deşirdi.
Çöldə tənha qalan Xarı bülbülü,
Düşmən ayaqlayıb basıb keçirdi.

İntiqam hissiylə coşurdu Şuşa,
Bu döyüş deyildi, adi tamaşa.
Düşmənin qurduğu hiylə torunda,
Son dəfə canını tapşırdı Şuşa.

Əsrlər şahidi olan qalalar,
Görmüşdü çox böyük belə bəlalar.
Bu bəla bəlanın dəhşətlisiydi,
Bu Azərbaycanın faciəsiydi.

Əymə sən başını, başımın tacı,
Nəhayət tapılar dərdin əlacı.
Ər-aslan oğullar ayağa qalxar,
Ayaqlar altında qalan bayrağı,
Şuşa qalasının başına taxar.

Sən azad olarsan qəmdən, kədərdən,
Bağlı qapıların açılar birdən.
Açılar qaralmış Günəşin üzü,
Onda bayram edər bütün Yer üzü!

# Bərəkət bayrağı

*Rafiq Yusifoğlu*

Hamı fərəhlə baxır
Yurdumun bayrağına...
Göy qurşağı enibdir
Lələtəpə dağına?!

Bu təpədən baxanda
Adamın gülür üzü...
Elə bil ki, sevinir
Yurdumun dağı, düzü...

Torpaqdan ayrı düşüb,
Nə qədər zillət çəkdik.
Minaların yerində
Axır ki, zəmi əkdik...

Sevindi torpaq ana,
Taxıl çıxdı qurşağa,
Sarı-sarı sünbüllər
Döndü nura, işığa...

Yel əsdikcə arabir
Qəlbdə arzu dillənir.
Bayrağıma qoşulub
Zəmilər də yellənir...

# Mənə zəfər yaraşır

*Mina Rəşid*

Gözləyirəm illərdir
İndi çox səbrsizəm.
Bu gün Qisas günümdür
Mübarizəm, Təbrizəm.

Vətənimdə toy tutub
Yallı gedən sənmisən?!
Bu gün zəfər mənimdir
Qarşımda əyilmisən!

Xocalıda körpəmin
Nədən oydun gözünü?!
30 ildir qəlbimdə
Daşıyıram bu zülmü!

Sənə ölüm yaraşır
Bu haqsız savaşında.
Mənə zəfər yaraşır
Alnıaçıq, üzüağ, üçrəngli bayrağımla
Doğma Qarabağımda!



# QARABAĞ xalçaları



Əjdahalı. Xalça. Xətai. Qarabağ qrupu. Azərbaycan. Şuşa. XVII əsr.



İpək tikmə. Qarabağ qrupu. Azərbaycan. XVII əsr.



İpək tikmə. Qarabağ qrupu. Azərbaycan. XVII əsr. Viktoriya və Albert Muzeyi.



Əjdahalı. Xalça. Xətai. Qarabağ qrupu. Azərbaycan. XVII əsr



İpək tikmə. Qarabağ qrupu. Azərbaycan. XVII əsr.



İpək tikmə. Qasımuşağı. Qarabağ qrupu. Azərbaycan. Laçın. XVII əsr.



İpək tikmə. Qarabağ qrupu. Azərbaycan. XV əsr



Xalça. Qarabağ qrupu. Azərbaycan. XVII əsr.



Əjdahalı. Xalça. Xətai. Qarabağ qrupu. Azərbaycan. XVII əsr. Tekstil Muzeyi.



Xalça. Çələbi. Qarabağ qrupu. Azərbaycan. Bərdə. XVII əsr.

# Ağdam



# ÇÖRƏK MUZEYİ

Yəqin ki, "Şərikli çörək" filminə baxmısan... Filmin qəhrəmanı olan həmyaşıdının bir parça çörək uğrunda mücadiləsini ürək ağrısı ilə izləmisən... Çörək - müqəddəs nemətdir. O qədər əzizdir ki, biz ona and içirik, biz onu tapdayanı namərd adlandırırıq, biz onu itirənə dost demirik... Və çörəyimizin qədrini bilməyənlərin, çörək itirənlərin dünyanın ən nadir muzeylərindən biri hesab edilən, işğal edilmiş Ağdam rayonundakı "Çörək muzeyi"nin dağıdıb, yerlə-yeksan etdiyi ekspozisiyasından danışacayıq...

Yer üzündə bir şəhər vardı. Ağ-ağ damların günəş şəfəqləri ilə işıqlanar, göyüzünü gümüşü-mavi parıltısı ilə işıqlandırardı. Gecələr yarpaqların pıçıltıdı ilə yuxuya gedər, səhərlər quşların cəhvəhi ilə oyanardı bu şəhər... Çöllərində kəhər atlar küləklərlə yarışar, çəmənlərindəki çiçəklərin ətri təndirlərində bişən çörəyin ətrinə qarışar, ev-ev, ocaq-ocaq dolaşardı. Və günlərin bir günü bu cənnət yurdun qoynunda "Çörək muzeyi" açılmasına aərar verildi. Bu qərar bu yurdun çörəyinə dəyər verənlərin çörəyə sadiqlik nümayişi idi..

Ağdamda dünyada ikinci çörək muzeyi 1982-ci ildə açıldı. Muzey ilk qonaqlarını 1983-cü il noyabrın 25-də qəbul etdi. Çörək Muzeyi çörəyin ən müqəddəs məkanında - XIX əsrin sonlarında xalqın un üyütməyə getdiyi dəyirmanda fəaliyyət göstərirdi.

Kompleksə karvansara da daxil idi. Əvvəllər "Dəyirman həyəti" adlandırılan bu ərazidəki muzey üç əsas bölmədən ibarət olub. Muzeyin girişi bilavasitə yay salonuna açılıb. Salonun ortasında kiçik fəvvarə olub. Buradan "Sünbül" kafesinə, mətbəxə və iki kiçik yeməkxanaya yol olub. Salonun girişindən solda sərgi salonu yerləşib.









Tavanı yüksək olan sərgi salonunun bəzi yerləri yuxarı və aşağı yaruslara bölünüb. Birinci sərgi salonunun sahəsi 80 kvadratmetr olub, ikincisininki 30 kvadratmetr . Birinci salonda gün ərzində 8-10 ton dən üyüdən dəyirman yerləşib. Burada ötən əsrin 30-cu illərində toxumu qatışıqdan ayıran "Triyer" maşını nümayiş etdirilib. İkinci sərgi salonu da maraqlı eksponatlarla zəngin olub. Burada əmək alətləri – xış, taxıldöyən lövhə, bıçaq, oraq, II əsrə aid əl dəyirmanı ("kirkirə"), "çarçar" adlandırılan taxıldöyən sərgilənib.

Dəyirmandan solda taxta pilləkənlə ikinci yarusa qalxıblar. Burada un məmulatı, o cümlədən Gəncə, Naxçıvan, Qarabağ, Gürcüstan, Dağıstan və Səmərqənddə bişirilən çörək növləri nümayiş etdirilib. Bundan əlavə, aşağı salonda qədim kuzələr və mətbəx avadanlığı nümayiş etdirilib. Sonrakı salonun eksponatları sırf taxılçılıq və əkinçilik ilə bağlı olub. Burada müxtəlif buğda növləri, taxıldan hazırlanan eksponatlar, müharibə illərində uşaqlara verilən çörək kartoçkaları, habelə buğda toxumlarından hazırlanmış Azərbaycanın xəritəsi sərgilənib.

Muzeyin ən qədim eksponatı - eramızdan əvvəl VII minilliyə aid daşlaşmış buğda toxumları olub.

Ermənistan silahlı qüvvələrinin hücumları zamanı muzey iki dəfə mərmi zərbəsindən ziyan çəkib. Birinci mərmi sərgi salonuna düşsə də partlamayıb. İkinci mərmi 1992-ci il avqustun 12-də saat 16:40-da muzeyi viran qoyub. Muzeydəki yanğını söndürmək cəhdləri səmərəsiz olub. Nəticədə muzeydə 1500-ə qədər eksponat yanıb külə dönüb.

Belə... Vəhşiliyin ən acı nəticəsi idi bu. Mədəniyyətimizin, abidələfimizin, muzeylərimizin məhvi idi... Bu - insanlığa qarşı ən ağır cinayət idi. Bu - Qarabağ uğrunda gedən ədalətsiz savaşın azərbaycan xalqının tarixinə vurduğu zərbə idi.





# Qarabağdan AXAN ÇAYLAR

*Çaylara bax, kəmər kimi,*
*Su paylayır, nəmər kimi,*
*Qarabağda – kəhər kimi,*
*Şahə qalxıb, daşan çaylar...*

*Şuşadan burulub keçən,*
*Yol gəlib, yorulub keçən,*
*Silaha sarılıb keçən,*
*Sərhədlərin aşan çaylar.*

*Dostu-doğmanı səsləyən,*
*Qoynunda Vətən bəsləyən,*
*Yurdu yuyub-təmizləyən,*
*Köksü dərddən şan-şan çaylar...*

Sevinc Nuruqızı

**TƏRTƏR ÇAYI** - öz mənbəyini Kəlbəcər rayonundan götürür, Ağdərə, Tərtər və Bərdə rayonlarının ərazisi ilə axaraq Kür çayına tökülür. Tərtər çayının qolları Tutqu, Lev və Ayrım çaylarıdır. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 3117 m-dir. Çayın üzərində Sərsəng su anbarı yaradılmışdır.

**XAÇINÇAY** - öz mənbəyini Kəlbəcər rayonundan götürür Ağdam, Tərtər və Bərdə rayonlarının ərazisi ilə axaraq Kür çayına tökülür. Uzunluğu 119 km-dir. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 2090 m-dir.

**KÖNDƏLƏNÇAY** - öz mənbəyini Şuşa rayonundan götürür. Xocavənd və Füzuli rayonlarının ərazisi ilə axaraq Araz çayına tökülür. Araz çayının sol qolu olmaqla uzunluğu 102 km-dir. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 1780 m-dir.

**BƏRGUŞAD ÇAYI (BAZARÇAY)** - Kəlbəcər, Qubadlı və Zəngilan rayonlarının ərazisi ilə axaraq Araz çayına tökülür. Araz çayının sol qolu olmaqla, uzunluğu 164 km-dir. Ona Qubadlı ərazisindən Ağa, Bəxtiyarlı və Davudlu kiçik çay qolları axır.

Çayın çirklənməsi çayətrafı ərazilərdə yerləşən iri yaşayış məntəqələrində yaranan (Ermənistan ərazisində) sənaye və məişət-çirkab suları hesabına olur. Çayın zəngin balıq növləri erməni işğalçıları tərəfindən talan olunur. Əksər hallarda balıqların kütləvi şəkildə kimyəvi maddələrlə qırılmasına yol verilir.

**HƏKƏRİ ÇAYI** - öz mənbəyini Laçın rayonunun 3080 m hündürlüyündən götürərək Qubadlı və Zəngilan rayonlarının ərazisi ilə axır. Araz çayının sol qolu olmaqla, uzunluğu 128 km-dir. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 2812 m-dir.

Çayın suyundan içmək və suvarma məqsədləri ilə istifadə olunur. Qiymətli farel, kütüm və s. balıqlar bu çayda kürü tökür.


BAZARÇAY

**OXÇUÇAY** - öz mənbəyini Zəngəzur dağ silsiləsindən (Qapıcıq dağı) götürməklə Zəngilan rayonunun ərazisi ilə axır. Araz çayının sol qolu olmaqla uzunluğu 85 km-dir. Ermənistan Respublikası ərazisində yerləşən Qacaran mis-molibden, Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qacaran şəhərlərinin (o cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji çirkli suları təmizlənmədən birbaşa Azərbaycan ərazisində Şərikan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini «Ölü zonaya» çevirmişdir.

**QARQAR ÇAYI** - öz mənbəyini Şuşa rayonundan 2080 m hündürlükdən götürərək Xankəndi, Xocalı, Ağdam və Ağcabədi rayonlarının ərazisi ilə axır. Qarqar çayı Zarıslı və Xəlfəli çaylarının birləşməsindən əmələ gəlir. Mənbəyi ilə mənsəbi arasında hündürlük fərqi 2080 m – dir. Əsas qolları – Ballıca, Bədərə, Dağdağan və sairdir.

**ÇAYLAQÇAY** - Araz çayının sol qoludur. Cəbrayıl rayonu ərazisindən axır. Uzunluğu 32 km–dir. Başlanğıcını Kiçik Qafqazın cənub ətəyindən (1750 m) alır. Axımı yağış sularından əmələ gəlir. Çaylaqçaydan suvarma işlərində geniş istifadə edildiyinə görə suyu mənsəbə çatmır.


QARQAR ÇAYI


OXÇUÇAY


XAÇINÇAY


TƏRTƏR ÇAYI

# Yeni kitablar




Ələmdar Quluzadənin "Qadan mənə, Qarabağ" kitabına Qarabağ mövzusunda yazdığı şeirlərlə yanaşı, müharibədən bəhs edən beş poeması və qədim Şuşaya həsr olunan "Pənah evi " adlı pyesi daxil edilmişdir.




Qəşəm İsabəylinin "Leyləyin intiqamı" kitabında son illərdə qələmə aldığı şeirləri, hekayə və nağılları toplanmışdır.




Elxan Elatlının "Qisas gecəsi" romanı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun qısa həyatından və şərəfli döyüş yolundan bəhs edir. Roman gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsində öz müsbət rolunu oynayır.




Mustafa Çəmənli Azərbaycanın Mlilli Qəhrəmanı Mübariz İbrahimovun iyirmi iki illik ömür yolundan bəhs edən povestində onun daxili aləmini, həyəcanlarını, mənəvi dünyasında baş verən ayanışı onu daim narahat edən, intiqama səsləyən səbəbləri bədii detallarla açıb göstərməyə çalışmışdır.




Vətən sevgisi - oxuculara təqdim olunan bu kitabda 20 il ömür yaşamış qubalı gəncin şeirləri toplanıb. Yaradıcılığa erkən başlayan, fitri istedadı çox tez parlayan, öz şeirləri ilə hətta böyük Səməd Vurğunun da diqqətini cəlb edərək ondan xeyir-dua alan Emil Yaqubov şeirlərində cəhaləti və geriliyi qamçılayır, Vətənə, insanlara sevgini tərənnüm edir.




Kitaba Qarabağ olayları ilə bağlı hekayələr daxil edilib. Hekayələrin bəzilərinin Qarabağ müharibəsinə birbaşa dəxli olmasa da, hadisələr müəllifin doğulduğu məkanda baş verir. Kitabın adı da təsadüfi seçilməyib. Elçin Hüseynbəylinin "Ağ-qara" kitabı yazıçının ovqatını əks etdirir.






""Şuşa" adlı bu nağıl kitabında Qarabağ xanı Pənahəli xandan bəhs olunur.




Эта история произошла в Карабахе. Мы думали, что время действия- весна этого года. Но старики рассказывают, что волк с таким же именем жил в этих краях сто лет назад.




В книге исследуется история Карабахского региона Азербайджана и армяно-азербайджанского Нагорно-Карабахского конфликта. В книге изучены этапы истории Карабаха, современное состояние и актуальные проблемы Нагорно-Карабахского конфликта.




"Cəbrayıl şəhidləri" kitabı əzəli-əbədi yurdumuz Qarabağ uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş soydaşlarımıza yanıqlı bir ağıdır. "Torpağın qanlı köynəyi" və "Qəm leysanı" adlı iki hissədən ibarət olan bu kitabda yaralı Cəbrayıl torpağında və ayrı-ayrı bölgələrimizdə şəhid olan 371-dən çox igidin taleyi bizi qaniçən erməni faşistlərindən intiqam almağa səsləyir.




В данном издании изложена история развития военного дела, рассказывается о всех видах вооружения, военной униформе.




Kitabda Azərbaycanın adını ucadan-uca tutan 209 qəhrəman haqqında məlumat verilib. Onların həyatı, rəşadəti bizə ana vətəni, ana torpağı-Azərbaycanımızı necə sevməyi, lazım gəlsə onun yolunda canımızdan keçməyi öyrədir.




Оружие. Открой книгу и ты не сможешь оторваться!

Ты прочтёшь: об истории оружия, о знаменитых сражениях, чем вооружён современный спецназ и многое другое.

# Şahlar və şahzadələr oyunu ÇÖVKƏN

Qədim Azərbaycan oyunu  Çövkən haqqında Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində və "Kitabi Dədə Qorqud" dastanında xatırlatmalar var. Bu əsərlər sübut edir ki, Çövkənin tarixi VI- VII əsrlərə, bəlkə də ondan daha qədim zamanlara gedib çıxır. Bu oyun Qarabağda məşhurlaşıb, genişlənmişdir. Çövkən oyunçuları məşhur Qarabağ atlarının tərkində coşqu və şücaət nümayiş etdirər, bu oyunun tamaşasına el yığılarmış.

Azərbaycan nağıllarında, eləcə də xalq qəhrəmanlıq dastanlarında göstərilir ki,  hər zaman Azərbaycan igidləri at çapmaqda, ox atmaqda məşhur olmuş, hünərlərinə çata bilən olmamışdır.

Çövkən oyunu öz adını alətin adından götürmüşdür. Belə ki, çövkən aləti ağacdan hazırlanardı.  Bu alət təxminən çömçəyə bənzəyərdi. Uzunluğu 1, 25 metr olurdu. Oyunçular da atın belində məhz bu alətin köməyi ilə oynayırdılar. Bu oyunda nəinki, kişilər, eləcə də qadınlar da yarışarmış.

Çövkən oyununun xüsusi qaydaları var idi. Çövkən oyununda 7 yaşına qədər uşaqlara piyada, 7 yaşından yuxarı oyunçular isə at belində oynayardı. Oyunda xüsusi qaydalar var idi: at hərəkət etdiyi zaman, çövkən vasitəsilə topa vurmaq olarmış, at dayandığı zaman isə topa vurmaq qadağan idi. Bu oyunun oynanılması üçün güc və məharət tələb olunurdu.

Çövkən oyununa həm də "Şahlar və şahzadələr" oyunu deyilir. Çünki bu oyun, şahların və şahzadələrin iştirakı ilə keçirilərdi. Qədim dövrlərdə Azərbaycanda  el şənlikləri, bayramlar, çövkənsiz keçilməzdi.

Bir çox hökmdarlar hədiyyə kimi bir-birlərinə Çövkən oyunçusunun qızıldan işlənmiş kiçik heykəlini göndərərdilər. Roma hökmdarından Sasani hökmdarı Xosrov Pərvizə, yaxud daha yaxın tarixdə Nadir şaha bu cür hədiyyə göndərildiyi söylənilir. Çovkən oyununu idarə edən şəxslər də şahın və hakimiyyətin yanında xüsusi hörmətə sahib idilər.

UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsi tərəfindən Qarabağ atları üzərində Azərbaycanın çövkən oyunu UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınıb.





# Sülh və məhəbbət çiçəyi



Xarıbülbül... Darıxırsan, bilirəm. Buludlara yaxın olmaq üçün. Yerlə Göyün arasında - kökü Vətən torpağında, çiçəyi mavi səmanın əl uzadanda toxunacaq qədər yaxınında... Cıdır düzündə olmaq üçün. Nəhayətsiz ənginliklər qoynunda azad Vətən mehində titrəmək, pislikdən və vəhşilikdən arınmış dupduru Vətən şehində yuyunmaq üçün... Vətən üçün... Az qalıb. Bütün həsrətlərin sonuna... Bütün vəhşiliklərin məhvinə. Qarabağda azadlıq Günəşinin doğacağı günə. Çox az qalıb, Xarıbülbül...

Xarıbülbül Azərbaycan florasının nadir bitkisidir. Səhləbkimilər (lat.Orxidacea) fəsiləsinin Ofris (Ophrys lat.) cinsinə aiddir. Latınca – Ophrys Caucasica və ya Ophrys Mammosa adlanan bu bitkinin Azərbaycanda bitən növü el arasında Xarıbülbül adlanır. Xarıbülbülün digər adı - Qafqaz qaş Səhləbidir. Ophrys – yunan mənşəli sözdür, mənası "qaş" deməkdir. Alimlər bu adı bitkiyə verməklə məcazi mənada bu gülün digərlərindən yüksəkdə olmasına eyham ediblər.

Azərbaycanın Dağlıq Qarabağ ərazisinin qədim Şuşa şəhərində bitən Xarıbülbül Şuşanın milli simvoludur. "Sülh və məhəbbət çiçəyi" adlanan Xarıbülbül əsl möcüzədir.

Xarıbülbül haqqında dillərdə iki rəvayət dolaşır.

**BİRİNCİ RƏVAYƏT:** Pənah xan qızını, şairə Ağabəyim Ağanı İran şahına ərə verir. Saraya gəldiyi gündən şairənin üzü gülmür. Bunu görən şah səbəbini soruşur. Xan qızı Şuşa üçün çox darıxdığını söyləyir. Şah onun Vətən həsrətini azaltmaq üçün qərara gəlir ki, bir bağ saldırsın və o bağda yalnız Şuşa torpağında bitən ağaclar basdırılsın. Şahın əmri ilə bağ salınır, Şuşadan hər növ ağac gətirilib əkilir. Hazır olanda Ağabəyim Ağa bağın seyrinə çıxır. "Vətən bağı" adı verdiyi bağı dolaşır. Amma kədər gözəl çöhrəsini tərk etmir. Şah səbəbini soruşur. Ağabəyim Ağa bağı gəzərkən Xarıbülbülü görmədiyini deyir. Şah bu bitkinin gətirilib bağda əkilməsini əmr edir. Amma Xarıbülbül yad torpaqda bitmir, solur.  Məlum olur ki, Xarıbülbül Şuşa torpağından başqa heç yerdə bitmir. Deyilənə görə, məşhur bayatının misraları yüz illərdir bu kədərin yükünü daşıyır:

Vətən bağı al-əlvandır,
Yox içində Xarıbülbül...

**İKİNCİ RƏVAYƏT:** "Bir bülbül var imiş. Bu bülbül bir gülə aşiq olubmuş. O gülü sevir, onun başına dolanır, onun üçün cəh-cəh vurur və onu qoruyurmuş. Günlərin bir günü bir arı gülü görür və onun şirəsindən dadmaq istəyir. Bülbül arının gülə doğru uçduğunu görüb, sinəsini qabağa verir, arının qarşısını kəsir. Onlar havada toqquşur və arı bülbülü sancır. Lakin bülbül ölmür, sevgisi və cəsarəti onu, sancdığı arı ilə birlikdə başqa bir gülə – Xarıbülbülə döndərir".



# MİNA təhlükəsi

Yaqin ki, minalanmış ərazi sözünü dəfələrlə eşitmisiniz. Minalanmış ərazi dedikdə, burada minalar, PHS-lər, əldəqayırma partlayıcı vasitələrin olması nəzərdə tutulur.

Həmin ərazilər əhalinin, o cümlədən uşaqların həyatı və sağlamlığı üçün böyük təhlükə yaradır. Oynamağa yollanan uşaqlar, çayın sahilinə, tarlaya, meşəyə gedən, tarlada işləyən yaşlılar mina təhlükəsinə məruz qalır.

Torpaqlarımızın minalardan təmizlənməsi və əhalinin mina təhlükəsindən qorunması işləri ilə ölkəmizdə Ərazilərin Minalardan Təmizlənməsi üzrə AzərbaycanMilli Agentliyi (ANAMA) məşğul olur.

ANAMA bizim ölkəmizdə hansı beynəlxalq təşkilatın yardımı ilə fəaliyyət göstərir?

ANAMA-ya texniki və idarəetmə üzrə yardım BMT-nin İnkişaf Proqramı və Uşaq Fondu (UNİSEF) tərəfindən göstərilir.

## Minalar haqqında nə bilirsiniz?

Minalar adamları yaralayır və öldürür.

Minalar müxtəlif ölçüdə, rəngdə və formada olur.

**ÖLÇÜSÜ:** kiçik, orta və böyük.

**FORMASI:** kvadrat, düzbucaq, dairəvi, silindrik, dirəkli.

**RƏNGİ:** adətən yaşıl olur, lakin çəhrayı, qara və boz rəngdə ola bilər.

**MATERİALI:** metal, plastik və ağac.

**MİNALARIN İKİ NÖVÜ VAR:** piyada əleyhinə və tank əleyhinə minalar.

Piyada əleyhinə minalar adətən torpağın 3-5 sm dərinliyində basdırılır. Belə minaları görməyib üzərinə ayaq basdıqda partlayır.

Tank əleyhinə minalar tankları və digər nəqliyyat vasitələrini məhv etmək üçündür.

Uşaqlar özünü qorumaq üçün bələd olmadığı yerlərə getməməli, silah və digər hərbi sursatlarla oynamamalı, onlara toxunmamalıdır.









**Tələ minalar və oyuncaq tipli partlayıcı vasitələr haqqında nə bilirsiniz?**

Tələ minaya toxunan kimi partlayır. Yerə atılmış və ağacdan asılmış hər hansı bir naməlum əşyaya toxunmayın. Partlayıcı vasitələr ağır əşyaların altında qoyula bilər. Demək olar ki, hər şeydən mina tələsi düzəldilə bilər: yapışqanlı kağız, izolent, naqil, hərbi rəngdə qutular və s...

Mina partlayışlarından qorunmaq üçün mina xəbərdaredici nişanlara diqqət yetirmək lazımdır:

- həmin ərazi boyu ip və lent çəkilməsinə;
- darvaza, çəpər üzərində əl ilə çəkilmiş işarə və qeydin olmasına;
- minalanmış yerin hansı istiqamətdə olduğunu göstərən ox işarəsinə;
- "Mina təhlükəsi!" sözləri yazılmış "Skelet və çarpaz sümüklər" şəkli olan;
- hərbiçilərin istifadə etdiyi, üstündə "M" hərfi olan kiçik bayrağa;

Əgər bu işarələrdən birini görsəniz, **DİQQƏTLİ OLUN!**

**Unutmayın! Təhlükəli ərazilər nişanlamaya da bilər!**






## Bələd olmadığınız yerlərdə xüsusi davranış qaydaları!

Evi tərk etdikdə hara getdiyinizi deməlisiniz ki, hadisə baş verən zaman sizi axtarıb tapa bilsinlər.

Adamların istifadə etdiyi yol və cığırlarla gedin. Imkan daxilində asfalt yolları seçin. Velosipedi, arabanı və s. heç vaxt yol kənarında sürməyin.

Çalışın ki, torpaq yollardan istifadə etməyəsiniz.

Bələd olmadığınız yerlərdə axtarışlar aparmayın.

Yerli adamlardan təhlükəsiz yerləri soruşmaq lazımdır.





# MƏNTİQİ SUAL



## ƏRAZİYƏ NƏZARƏT

Müharibə idi. Gizirlə çavuş dəmiryol stansiyasına döyüş sursatı gətirməyə gedirdilər.

Onlar yük maşınında yola çıxdılar. Yol uzaq idi və ən təhlükəlisi o idi ki, meşənin içi ilə irəliləməli idilər.

Meşə ilə getmək müharibə dövründə çox çətin idi. Hər bir an hansısa bir ağacın və kolun dalından düşmən çıxa bilərdi. Ona görə də ayıq-sayıq olmaq lazım idi. Həm silahı hazır tutmaq, həm də ətrafı nəzarətdə saxlamaq şərt idi.

Maşının yük yerində gizirlə çavuşdan başqa heç kəs yox idi. Onlar həm sağa, həm sola, həm önə, həm də arxaya nəzarət etməli, eyni anda bir-birini diqqətdən qaçırmamalıydılar.

Qəhrəman çavuşla gizir bu işin öhdəsindən asanlıqla gəldilər. Tapa bilərsənmi, necə?

Alay komandiri 10 əsgəri çayın o biri sahilinə göndərməli idi. Çayın üzərində körpü yox idi və çayı üzə-üzə keçmək çətin idi. Elə bu vaxt komandir bir qayıq gördü. Qayıqda iki uşaq oturmuşdu. Qayıq ya həmin iki uşağı, ya da bir əsgəri daşımaq gücündə idi. Komandir bu qayıqda əsgərləri o biri sahilə necə göndərdi?








Nisə Muradova (144 saylı məktəbin 6-cı sinif şagirdi)